# Şəhid ailələri və qazilər üçün iftar süfrəsi







Qəbələ "Garden" hoteldə Qəbələ Rayon İcra Hakimiyyəti və şəhər bələdiyyəsinin təşkilatçılığı ilə Ramazan ayı çərçivəsində iftar süfrəsi təşkil edilmişdir. Şəhid ailələri, qazilər, bir qrup rayon ictimaiyyətinin nümayəndələri və rayon ağsaqqallarının iştirak etdiyi tədbirdə şəhidlərin ruhuna dualar oxunmuş, qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə təbriklər səslənmişdir. Şəhid ailələri və qazilər onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

## Heç kəs unudulmur

# Bahar doğumlu, bahar ömürlü





Bu gün 13 sentyabr 2022-ci il tarixində erməni silahlı qüvvələrinin Azərbaycan - Ermənistan sərhədində törətdiyi təxribat nəticəsində şəhadətə yüksəlmiş Azərbaycan Respublikası Sərhəd Qoşunlarının hərbi qulluqçusu, kiçik gizir Qəbələ rayonu Mıxlıqovaq kənd sakini Babazadə Elşən Sahib oğlunun doğum günü münasibətilə rayon icra hakimiyyətinin, təhsil sektorunun, Qızıl Aypara Cəmiyyətinin Qəbələ rayon şöbəsinin nümayəndələri, şəhidin ailə üzvləri, döyüş yoldaşları, eləcə də və təhsil aldığı məktəbin kollektivi şəhidin məzarını ziyarət edərək üzərinə gül dəstələri qoymuş və ruhuna dualar oxunmuşdur. Şəhid ailələrinə göstərilən yüksək diqqət və qayğıya görə şəhidin valideynləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını bildirmişlər.

# İgidlik çəkisizdir

**Zəhmət, halallıq "donlu"**

İnsan taleyi doğuluşdan yazılır, hamıdan gizlin, heç kəsin oxuya bilmədiyi bir yazı - alın yazısı... O yazını Tanrı yazar hər kəsə. Eldənizin, Aynurənin taleyinə də acılı-şirinli bir yazı yazıbmış. Yaşadığı ömür boyu əl-ələ verib nə zəhmətlər çəksələr də, əmək sərf etməkdən qorxmayaraq halal həyat sürsələr də o alın yazısını nə oxuya, nə dəyişə bildilər. Ömrün hər günündə düzlük, halallıq yolunda oldular, iki körpə övladlarını da bu hisslərə köklədilər, bu yolun yolçusu etdilər, şərəfli həyat, yaşam üçün yaşadılar. Sevimli şairimiz Məmməd Araz deyimli düşündülər:

***Qar altında yaz gözləyən əkin kimi,***
***Ədalətə heykəl yonsan əklil kimi,***
***Doğruya qan, şərə qalxan vəkil kimi,***
***Gərək ollam, qoru məni, yaşat məni!***

Fəqət bilmədilər ki;

***Fələyin qılıncı daş parçalayan,***
***Taleyin qalxanı yarpaq gücündə...***

Zəhmətdən yoğrulanlar Vətən yüklü olurlar. Vətən onların könüllərinin məhbubu olar. Vətənin yeri də, göyü də, dənizi də onları sevər, arzuları dünyanınənginliyində insanlığa mayak olar. Elə bu mayak da onların həyat yolunu tənzimləyər, düşüncə və duyğularına reallıq "donu" geydirərək reallıq yoluna iz saldırar. Bu yolun izini axtararaq Nohurqışlaq kəndinə üz tutduq.





Həyət qapısına yaxınlaşdıqca zəhmət qoxusu bədənimi sardı. Bu həyətin hər addımında əl qabarı, alın təri, "hünər qalası" diqqəti cəlb edir, insanın yaşam mücadiləsi nəzərlərdə "meydan" oxuyurdu. Ancaq kiçik buzov, plyonkalı "parniklər", ləçəklərini tökmək üzrə olan "tülpan" gülləri fikir aynamı təzələdi. Bəlkə də bu güllər ləçəklərini tökməklə öz "küskünlüyünü" hiss etdirirdi. Axı deyilənə görə bu bahar çiçəklərini Novruzla birgə əkmişdi anası...

Pilləkəni döyəcləyəndə gəncliyini yeni atlatmış yaşda olan ata-ana qarşıladı məni. Sözün açığı onları görərkən qəlbim sancdı... Nə qədər şan-şöhrət, ölməzlik, qürur bəxş edəcək bir ad olsa da şəhid valideynlərinin ürək ağrısının üzlərinə çökdüyünü gördüm. Yanıb-yanıb "kösövə" dönmüşdü onlar. Sanki dağ uçulub altında qalmış, cismən bu ağırlığın zərbində idilər. Axı hələ şəhidin heç qırx mərasimi belə çıxmamışdı.

Onlarla söhbət zamanı Novruzla daha yaxından tanış olurdum...

Eldəniz Nohurqışlar kəndində (48 yaşlı), həyat yoldaşı Aynurə (43 yaşlı) isə Vəndam qəsəbəsində dünyaya göz açmışdılar. 2003-cü ildə mayın 11-də (şəhidin qırx mərasimi həmin günə təsadüf edir) ailə qurmuşdular. Ailədə iki körpə böyümüşdü, hər ikisi oğul övladı - Novruz və Nihat. Təsərrüfat işləri ilə məşğul olan ailənin övladları da valideynlərinə həmişə yardımçı olmuş, əsil zəhmətsevər və ağıllı övlad kimi böyümüşdülər.

**Mən əsgər gedəcəyəm**

Novruz Eldəniz oğlu Niftalıyev 2004-cü ildə Nohurqışlaq kəndində doğulmuşdu. Orta təhsilini də elə həmin kənd məktəbində almışdı. Novruz hələ 7 yaşından Qəbələ rayon idman klubunda cüdo üzrə idman məktəbinə gedirdi. Məşqçi müəllimləri onun həmişə fəal, çalışqan olduğunu deyirdilər. İdmanda fəaliyyəti onun qazandığı diplom və Fəxri fərmanlardan, sertifikatlardan daha aydın hiss olunurdu. 16 yaşına kimi idmanla məşğul olan Novruz bədən çəkisinin az olması ilə əlaqədar idmandan uzaqlaşdı. Bu ona çox pis təsir etmişdi. 18 yaşı tamam olduqda isə çəkisində azacıq fərq olduğu üçün onu hərbi xidmətə göndərilməyəcəyini öyrəndi. Bu Novruza ikinci zərbə idi... Axı o, hərbi xidmətə getmək və hərbi qulluqçu kimi əmək fəaliyyətinə başlamaq istəyirdi. Dəfələrlə hərbi komissarlığa ərizə yazaraq onu əsgəri xidmətə göndərilməsinə icazə verilməsini xahiş etmişdi... Hələ 7-ci sinifdə oxuyarkən Hikmət Mirzəyevə məktub yazaraq hərbiçi olmaq istəyini bildirmişdi .

İlk arzusuna nail olanda sevinci hədsiz idi. Bu 2022-ci ilin aprel ayının 25-nə təsadüf etmişdi - o, həqiqi hərbi xidmətə yola düşmüşdü... Novruz əvvəlcə Gəncədə əsgəri xidmətə başladı. Sonralar isə müxtəlif bölgələrdə xidmətini davam etdirmişdi. Xidmət dövründə nümünəvi, çalışqan və intizamlı əsgər kimi təşəkkürnamələr almışdı. Hətta komandanlıq onu qol saatı ilə mükafatlandırmışdı.

Hətta xidmətdən sonra hərbiçi kimi xidmətdən əlavə fəaliyyət göstərmək istəyini də komandanlığa bildirmişdi. Xüsusi təyinatlıda qalmaq üçün müxtəlif növlər üzrə yoxlama imtahanlarına getmişdi. Boyu düz gəlsə də, bədən çəkisi düz gəlmədiyi üçün öz istəklərindən uzaq düşürdü. Ancaq komandanlıq onun istəyini nəzərə alaraq xidmətdən əlavə Novruzu hərbi qulluğa hazırlayırdı, özü hərbi işi mükəmməl öyrənməyə səylə çalışırdı. Hərbi işdə işləmək, ən uca zirvəni fəth etmək istəyirdi. Məmməd Araz düşüncələri sanki ona aid edilmişdi:

***O zirvədə qar buludlu, bulud-qar,***
***O zirvəyə biçilməyə bulud-dar,***
***Əl eləsəm əlcək olan buludlar-***
***Əlim çatmaz, ünüm yetməz....***

**Hiss olunan istəklər**

Əsgəri xidmətdən əvvəl anası Mingəçevir şəhərinə həkimə gedərkən Novruz da valideynləri ilə getmişdi. Atası müayinənin vaxt aparacağını görüb Novruza yol xərcini verərək evə tez getməsini söylədi. Novruz evə qayıtdı. Valideynləri axşamüstü evə gələndə Novruzun milli bayraqımızı evin dam örtüyünün üstündən taxdığını gördülər. O, atasının verdiyi pula bayraq almışdı. Həmçinin əsgəri xidmətə yola düşəndə də o bayrağı yol qapısından asmış və demişdi ki, bu bayrağı mən gələnədək açmayın... O bayraq indi də qalır, valideynləri onu xalçanın üstə vurmuşlar. Bilirsiniz niyə bayraq yerini dəyişib?!..

Novruz son vaxtlar hərbi xidmətini Suqovuşanda davam etdirirdi. Mənfur düşmənlərin torpaq altda "dəfn" etdikləri minalardan birinə düşərək həyata göz yuman, öz istəklərinə yekun vuran Novruz 2023-cü ilin aprel ayının 2-də öz evinə, ocağına sevdiyi bayrağa bürünərək gəldi...

***Heç nə qalmayacaq, bilirəm heç nə,***
***Nə şöhrət çələngi, nə şöhrət tacı.***
***Vida deyəcəyəm Vətən mülkünə,***
***Gözləri yumulu, əlləri açıq...***

**Anaya demişdi...**

- "Sənə xoş günlər yaşadacam, ana! - demişdi. Arzuları üçün həmişə çalışan, mübarizə aparan, "çəkisinin" arzularına sərhəd qoyduğu Novruz öz kiçicik ürəyinin ən böyük çəkisi ilə uca zirvələrə yüksəldi. O zirvədə əməli, qəhrəmanlığı, şücaəti, insanlığı çəki ilə ölçməzlər. Çünki o çəki sonsuzdur! Şəhadətə qovuşanların çəkisi Vətən, Torpaq ölçülüdür!..

***Bu ürək Vətənim, bu ürək ölkəm,***
***Nə pislik tanıdı, nə kin, nə acıq.***
***Necə yaşadımsa, elə də öləm:***
***Gözləri yumulu, əlləri açıq...***

Əlləri açıq - bilirsiniz niyə?! - Valideynləri və qardaşı Nihat üçün... Onların xoş günlərinə yol açıqlığı üçün! Gözləri yumulu - bu isə, acı çəkən əzizlərini cismən görməmək üçün...

Novruz məzuniyyətə fevral ayının 8-də gəlmişdi... Vəndam qəsəbəsində baba evinə qonaq getmiş, orada yalnız ayaqlarını hərbi addımlarla Polad Həşimovun, Azərbaycanın Milli Qəhrəmanının ruhuna, xatirəsinə istinadən Şəmistanın hərbi mahnılarının sədaları ilə videoya çəkmişdi. Və onu anasına göndərmişdi!.. Bu qəhrəmanlığa bir mesaj idi... Ana hər gün o addımlara baxır, dəfələrlə. Sanki Novruz o möhtəşəm əsgər addımları ilə gələcək... Halbuki o əsgəri xidməti borcunun bitməsindən də 3 ay əvvəl gəldi... Və əbədi yaşam, ölməzliyi seçərək...

O körpə şəhidimin böyük ürəyində dünya biçimli bir sevgi vardı... Elə bir sevgi ki, nə çəkiyə gələ bilərdi, nə həcmə... Ümmanlıq donunda sevgi... O da çiləndi şəhidimin başqa arzuları kimi... O da gömüldü torpağa,,, Əbədiyyətə. Və sevdiyi qızın baxışlarının dərinliyinə... ürəyində bloklandı.

**Bibixanım İSAYEVA.**